# Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun hərbi qulluqçuların sosial müdafiəsini gücləndirmək məqsədilə onların həyatının və səhhətinin dövlət icbari şəxsi sığortası qaydalarını və şərtlərini müəyyən edir.

M a d d ə 1 . **Hərbi qulluqçuların dövlət icbari sığortası haqqında qanunvericilik**

*1.1.* Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası bu Qanunla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Sığorta fəaliyyəti haqqında Qanunu, "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanunu və digər qanunları ilə, müvafiq icra hakimiyyəti orqanlarının bu Qanuna uyğun olaraq qəbul etdikləri normativ aktlarla tənzimlənir.[1]

*1.2. Ələt azad iqtisadi zonasında hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası sahəsində münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.*[2]

M a d d ə 2 . **Sığorta olunanlar**

Bu Qanunun məqsədləri üçün hərbi qulluqçulara (sığorta olunanlara) Azərbaycan Respublikası Silahlı Qüvvələrinin, *dövlət təhlükəsizliyi, xarici kəşfiyyat* orqanlarının şəxsi heyəti, habelə *hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda)* hərbi xidmətdə olan şəxslər və toplanışlarda olan hərbi vəzifəlilər aid edilirlər.[3]

M a d d ə 3 . **Sığortaçı**

Hərbi qulluqçuların sığortaçısı dövlət sığorta orqanıdır.

*Sığortaçı müvafiq riskləri sığorta etdirmək üçün müraciət edən və sığorta marağı olan bu Qanunun 6-cı maddəsinin birinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanları ilə icbari sığorta müqaviləsi bağlamaqdan imtina edə bilməz.*[4]

M a d d ə 4 . **Sığorta məbləğinin və sığorta haqqının minimum miqdarı**

Bu Qanuna uyğun olaraq hərbi qulluqçu on bir min manat məbləğində sığorta edilir.[5]

Sığorta haqqı~~, sığortaçının komisyon mükafatları da nəzərə alınmaqla~~, sığorta məbləğinin 1 faizi miqdarında müəyyən edilir.[6]

~~Müvafiq icra hakimiyyəti orqanının qərarı ilə sığorta məbləğinin və haqqının miqdarı artırıla bilər.~~[7]

M a d d ə 5 . **Sığorta hadisələri və ödənişləri**[8]

Aşağıdakılar sığorta hadisələri hesab edilir və onlara görə sığorta ödənişləri bu Qanunun 4-cü maddəsi ilə müəyyən edilmiş sığorta məbləğinin müvafiq faiz nisbətlərində verilir:

a) sığorta olunan həqiqi hərbi xidmətdə (toplanışda) olduğu zaman həlak olduqda, öldükdə və ya xəbərsiz itkin düşdüyünə görə məhkəmə qərarı ilə ölmüş elan edildikdə — 100 faiz;

b) sığorta olunan həqiqi hərbi xidmətdə (toplanışda) olduğu zaman xəsarət (yaralanma, travma, kontuziya) alması, habelə xəstələnməsi nəticəsində xidmətdən (toplanışdan) buraxıldıqdan sonra üç il müddətində öldükdə — 100 faiz;

c) sığorta olunan həqiqi hərbi xidmətdə (toplanışda) olduğu zaman xəbərsiz itkin düşdükdə (məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda) — 100 faiz;

ç) hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirərkən və ya həqiqi hərbi xidmət dövründə xəsarət (yaralanma, travma, kontuziya) almasına, habelə həqiqi hərbi xidmət dövründə xəstələnməsinə görə həqiqi hərbi xidmətə yararsız hesab edilərək həqiqi hərbi xidmətdən (toplanışdan) ehtiyata və ya istefaya buraxıldığı gündən, həmçinin ehtiyata və ya istefaya buraxıldığı gündən həqiqi hərbi xidmət dövründə alınmış xəsarət (yaralanma, travma, kontuziya) və ya xəstəliklə əlaqədar üç il müddətində sığorta olunana əlillik təyin olunduqda:

- I qrup əlilliyə görə — 80 faiz;
- II qrup əlilliyə görə — 60 faiz;
- III qrup əlilliyə görə — 40 faiz;

d) sığorta olunan həqiqi hərbi xidmətdə (toplanışda) olduğu zaman, bu maddənin a, b və ç bəndlərində nəzərdə tutulmuş hallarla nəticələnməyən:

- ağır xəsarət (yaralanma, travma, kontuziya) aldıqda — 25 faiz;
- yüngül xəsarət (yaralanma, travma, kontuziya) aldıqda — 5 faiz.

M a d d ə 6 . **Sığortanın aparılması qaydası**

Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası müvafiq icra hakimiyyəti orqanları (sığortalılar) üçün bu məqsədlə hər il dövlət büdcəsində nəzərdə tutulmuş vəsait hesabına aparılır.

Sığortalılar hərbi qulluqçuların dövlət icbari şəxsi sığortasını təmin etmək üçün onlara bu məqsədlə dövlət büdcəsindən ayrılan vəsaitdən tələb olunan sığorta haqlarının məbləğini hər il rüblər üzrə sığortaçıya ödəyirlər.[9]

Sığortaçı hər bir müvafiq icra hakimiyyəti orqanlarına əvvəlki rübün icrasına dair hesabat təqdim edir.

Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası üzrə işlərin aparılması xərclərinə ayırmalar müvafiq sığorta haqlarının 10 faizi miqdarında müəyyən edilir.[10]

Sığortaçı, yaxud onun ərazi bölmələri bu Qanunda nəzərdə tutulmuş şərtlərə və məbləğdə sığorta olunana və ya onun vərəsələrinə sığorta ödənişini müvafiq sənədləri aldığı gündən 7 gün ərzində verir.

Sığorta ödənişi verilmiş sığorta hadisəsi ilə bağlı yeni sığorta hadisəsi baş verdikdə əvvəl ödənilmiş məbləğ nəzərə alınır.

*Sığortaçı sığorta ödənişini bu maddənin beşinci hissəsi ilə müəyyən edilmiş müddətdə ödəmədikdə, hər gecikdirilmiş gün üçün sığorta ödənişi məbləğinin 0,1 faizi həcmində dəbbə pulu ödəyir.*[11]

## M a d d ə 7 . **Sığorta ödənişlərinin alınması üçün tələb olunan sənədlər**

Sığorta ödənişlərinin alınması üçün sığorta olunan, yaxud onun vərəsələri dövlət sığorta orqanlarına və ya yaşadığı ərazi üzrə həmin orqanın bölmələrinə müəyyən olunmuş formada ərizəsi və şəxsiyyətini təsdiq edən sənədi ilə birlikdə aşağıdakı sənədləri təqdim edir:

a) həlak olması (ölüm) halında;

sığorta olunanın ölümü haqqında müvafiq icra hakimiyyəti orqanının ~~notariat qaydasında təsdiq olunmuş~~ şəhadətnaməsinin surəti;[12]

vərəsəlik hüququnu təsdiq edən sənəd;

sığorta olunan xidmətdə (toplanışda) olduğu zaman xəsarət (yaralanma, travma, kontuziya) alması, xəstələnməsi nəticəsində xidmətdən (toplanışdan) buraxıldıqdan sonra üç il müddətində öldükdə yuxarıda göstərilən sənədlərdən əlavə, həkim komissiyasının həmin faktı təsdiq edən rəyi;[13]

b) əlillik halında:

əlilliyin təyin edilməsi haqqında (əlilliyin qrupu, səbəbi və təyin edilməsi tarixini göstərməklə) tibbi-sosial ekspert komissiyasının arayışının ~~notariat qaydasında təsdiq edilmiş~~ surəti;

hərbi bilet (yaxud onu əvəz edən sənəd);

sığorta olunanın həqiqi hərbi xidmətdə olarkən xəstələnməsi və ya xəsarət (yaralanma, travma, kontuziya) alması faktını təsdiq edən hərbi həkim komissiyasının qərarının surəti;[14]

c) ağır, yaxud yüngül xəsarət (yaralanma, travma, kontuziya) alması halında:[15]

xəsarətin (yaralanmanın, travmanın, kontuziyanın) dərəcəsi və səbəbi haqqında hərbi-həkim komissiyasının arayışı;[16]

ç) hərbi qulluqçunun səhhətinin pozulmasına görə xidməti vəzifəsini yerinə yetirməyə yararsız hesab edilməsi halında:

xəstəlik vərəqəsindən çıxarış;

hərbi bilet (yaxud onu əvəz edən sənəd).

Müvafiq icra hakimiyyəti orqanlarının ~~və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış qoşun birləşmələrinin~~ hərbi hissələri, müəssisə, təşkilat və idarələri, *hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanları (dövlət orqanlarının strukturuna daxil olan qurumlar),* hərbi təhsil müəssisələri sənədlərin

rəsmiləşdirilməsində və sığorta ödənişlərinin alınmasında sığorta olunanlara, yaxud onların vərəsələrinə kömək etməlidirlər.[17]

~~sığorta olunanın və ya onun vərəsələrinin sığorta ödənişinin alınması üçün sığorta hadisəsi günündən üç il keçənədək sığorta orqanlarına müraciət etmək hüququ vardır.~~[18]

Maddə 8. **Sığorta ödənişinin verilməsindən imtina**

sığorta olunana və ya onun vərəsələrinə sığorta məbləğinin verilməsindən aşağıdakı hallarda imtina edilir: sığorta edilənin sığorta hadisəsi ilə birbaşa bağlı olan qəsdən cinayət törətdiyi barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olduqda, yaxud sığorta edilən alkoqoldan, narkotik vasitələrdən, psixotrop maddələrdən və ya güclü təsir edən digər maddələrdən istifadə olunması nəticəsində sərxoş vəziyyətdə hərəkət etdikdə, habelə sığorta olunan və ya onun vərəsələri tərəfindən bu Qanunun 7-ci maddəsində nəzərdə tutulmuş hallarda müvafiq sənədlər təqdim olunmadıqda.[19]

Maddə 9. **Nəzarət və məsuliyyət**

Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortasının vaxtında və düzgün aparılmasına müvafiq icra hakimiyyəti orqanları və *maliyyə bazarlarına nəzarət* orqanı nəzarət edirlər.[20]

Bu Qanunun müddəalarının pozulmasına görə müvafiq icra hakimiyyəti orqanlarının, dövlət sığorta orqanlarının və onların bölmələrinin rəhbərləri və digər vəzifəli şəxsləri Azərbaycan Respublikasının Mülki, İnzibati Xətalar və Cinayət məcəllələrində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.[21]

~~Maddə 10. **Vergitutma**~~[22]

~~Dövlət sığorta orqanlarına ödənilmiş sığorta haqları məbləğindən (sığorta xidmətlərinin göstərilməsindən alınan mənfəətdən başqa) və sığorta edilənlərə verilmiş sığorta ödənişlərindən vergi tutulmur.~~

Maddə 11. **Mübahisələrə baxılması qaydası**

Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası ilə əlaqədar mübahisələr Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş qaydada, o cümlədən məhkəmə qaydasında həll edilir.[23]

**Azərbaycan Respublikasının Prezidenti Heydər ƏLİYEV**

Bakı şəhəri, 20 may 1997-ci il
№ 296-IQ

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 23 noyabr 2001-ci il tarixli 219-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 12, maddə 736**)
2. 24 iyun 2005-ci il tarixli 948-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 8, maddə 692**)
3. 1 sentyabr 2005-ci il tarixli Azərbaycan Respublikasının Qanunu ("**Azərbaycan" qəzeti, 16 oktyabr 2005-ci il, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 8, maddə 872**)
4. 20 oktyabr 2006-cı il tarixli 169-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 12, maddə 1007**)
5. 2 iyun 2008-ci il tarixli **618-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 6, maddə 462**)
6. 2 oktyabr 2008-ci il tarixli 699-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 16 noyabr 2008-ci il, № 257, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, №11, maddə 960)**
7. 21 dekabr 2010-cu il tarixli **38-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 18 fevral 2011-ci il, № 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, № 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 02, maddə 71)**
8. 03 dekabr 2013-cü il tarixli **832-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 26 dekabr 2013-cü il, № 285, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 12, maddə 1491)**
9. 16 dekabr 2014-cü il tarixli **1130-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 6 fevral 2015-ci il, № 28, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 2, maddə 73)**
10. 4 mart 2016-cı il tarixli **149-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 13 mart 2016-cı il, № 57, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 03, maddə 415)**
11. 7 aprel 2017-ci il tarixli **555-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 20 may 2017-ci il, № 107, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 5, maddə 686)**
12. 28 dekabr 2018-ci il tarixli **1416-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 31 yanvar 2019-cu il, № 24, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 33)**
13. 22 oktyabr 2019-cu il tarixli **1685-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 13 noyabr 2019-cu il, № 251)**

## QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 2 oktyabr 2008-ci il tarixli 699-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 16 noyabr 2008-ci il, № 257, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, №11, maddə 960)** ilə 1-ci maddədə "**Sığorta haqqında**" sözləri "**Mülki Məcəlləsi, "Sığorta fəaliyyəti haqqında**" sözləri ilə əvəz edilmişdir.

03 dekabr 2013-cü il tarixli **832-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika"**

**qəzeti, 26 dekabr 2013-cü il, № 285, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 12, maddə 1491)** ilə 1-ci maddədə "**Qanunu**" sözündən sonra ", "**İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanunu**" sözləri əlavə edilmişdir.

[2] 28 dekabr 2018-ci il tarixli **1416-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 31 yanvar 2019-cu il, № 24, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 33)** ilə 1-ci maddənin mətni 1.1-ci maddə hesab edilmişdir və yeni məzmunda 1.2-ci maddə əlavə edilmişdir.

[3] 1 sentyabr 2005-ci il tarixli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 8, maddə 872**) ilə 2-ci maddədən "**və daxili işlər**" sözləri çıxarılmışdır.

Əvvəlki redaksiyada deyilirdi:

~~Bu Qanunun məqsədləri üçün hərbi qulluqçulara (sığorta edilənlərə) Azərbaycan Respublikası Silahlı Qüvvələrinin, milli təhlükəsizlik və daxili işlər orqanlarının şəxsi heyəti, habelə, Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə yaradılmış digər qoşun birləşmələrində hərbi xidmətdə olan şəxslər və toplanışlarda olan hərbi vəzifəlilər aid edilirlər.~~

7 aprel 2017-ci il tarixli **555-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 20 may 2017-ci il, № 107, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 5, maddə 686)** ilə 2-ci maddəsində "**milli təhlükəsizlik**" sözləri "**dövlət təhlükəsizliyi, xarici kəşfiyyat**" sözləri ilə əvəz edilmişdir.

22 oktyabr 2019-cu il tarixli **1685-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 13 noyabr 2019-cu il, № 251)** ilə 2-ci maddədə "**Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə yaradılmış digər qoşun birləşmələrində**" sözləri "**hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda)**" sözləri ilə əvəz edilmişdir.

[4] 16 dekabr 2014-cü il tarixli **1130-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 6 fevral 2015-ci il, № 28, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 2, maddə 73)** ilə 3-cü maddəyə yeni məzmunda ikinci hissə əlavə edilmişdir.

[5] 20 oktyabr 2006-cı il tarixli 169-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 12, maddə 1007**) ilə 4-cü maddənin birinci hissəsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Bu Qanuna uyğun olaraq hər bir hərbi qulluqçu qanunvericiliklə müəyyən edilmiş minimum əmək haqqının min misli məbləğində sığorta edilir.~~

2 iyun 2008-ci il tarixli **618-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 6, maddə 462**) ilə 4-cü maddəsinin birinci hissəsində "**qanunvericiliklə müəyyən edilmiş şərti maliyyə vahidinin on min misli**" sözləri "**on bir min manat**" sözləri ilə əvəz edilmişdir.

[6] 24 iyun 2005-ci il tarixli 948-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 8, maddə 692**) ilə 4-cü maddənin ikinci hissəsində "**işin aparılması üçün sığortaçının xərcləri də**" sözləri "**sığortaçının komisyon mükafatları da**" sözləri ilə əvəz edilmişdir.

2 oktyabr 2008-ci il tarixli 699-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 16 noyabr 2008-ci il, № 257, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, №**

**8, maddə 872)** ilə 4-cü maddənin ikinci hissəsindən "**, sığortaçının komisyon mükafatları da nəzərə alınmaqla**" sözləri çıxarılmışdır.

[7] 03 dekabr 2013-cü il tarixli **832-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 26 dekabr 2013-cü il, № 285, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 12, maddə 1491)** ilə 4-cü maddənin üçüncü hissəsi ləğv edilmişdir.

[8] 20 oktyabr 2006-cı il tarixli 169-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 12, maddə 1007**) ilə 5-ci maddənin a)" bəndində "**həlak olduqda**" sözlərindən sonra mötərizədə "**öldükdə**" sözü əlavə edilmişdir.

20 oktyabr 2006-cı il tarixli 169-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 12, maddə 1007**) ilə 5-ci maddənin "b)" bəndində "**yaralandıqda (kontuziya aldıqda)**" sözləri "**xəsarət (yaralanma, travma, kontuziya) aldıqda**" sözləri ilə əvəz edilmişdir.

20 oktyabr 2006-cı il tarixli 169-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 12, maddə 1007**) ilə 5-ci maddənin "c)" bəndində "**ilə**" sözü "**olduqda**" sözü ilə əvəz edilmişdir.

20 oktyabr 2006-cı il tarixli 169-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 12, maddə 1007**) ilə 5-ci maddənin "d)" bəndinin ikinci abzasında "**yaralandıqda**" sözü "**xəsarət (yaralanma, travma, kontuziya) alması nəticəsində**" sözləri ilə əvəz edilmişdir, "**pozulduğuna**" sözündən sonra mötərizədə "**xəstəliklə əlaqədar sağlamlığına ziyan dəydikdə**" sözləri əlavə edilmişdir, "**xidməti vəzifəsini yerinə yetirməyə**" sözləri "**hərbi xidmətə**" sözləri ilə əvəz edilmişdir.

20 oktyabr 2006-cı il tarixli 169-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 12, maddə 1007**) ilə 5-ci maddənin "d)" bəndinin üçüncü abzasında "**yüngül yaralandıqda**" sözləri "**yüngül xəsarət (yaralanma, travma, kontuziya) alması ilə əlaqədar xəstəlik nəticəsində sıradankənar hərbi xidmətə yararlı hesab edildikdə**" sözləri ilə əvəz edilmişdir.

03 dekabr 2013-cü il tarixli **832-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 26 dekabr 2013-cü il, № 285, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 12, maddə 1491)** ilə 5-ci maddənin mətni yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Sığorta hadisələri baş verdikdə sığorta məbləğinin faizlə aşağıdakı sığorta ödənişləri verilir:~~

~~a) sığorta olunan xidmətdə (toplanışda) olduğu zaman həlak olduqda (öldükdə) — 100 faiz;~~

~~b) sığorta olunan xidmətdə (toplanışda) olduğu zaman xəsarət (yaralanma, travma, kontuziya) aldıqda, xəstələnməsi nəticəsində xidmətdən (toplanışdan) buraxıldıqdan sonra üç il müddətində öldükdə — 100 faiz;~~

~~c) sığorta olunan xidmətdə (toplanışda) olduğu zaman itkin düşdükdə (məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda) — 100 faiz;~~

~~ç) xidməti vəzifəsini yerinə yetirməsi ilə əlaqədar olaraq sığorta olunana xidmətdən (toplanışdan) buraxıldığı gündən üç il müddətində əlillik təyin olunduqda:~~

~~I qrup — 80 faiz;~~

~~II qrup — 60 faiz;~~

~~III qrup — 40 faiz;~~

~~d) sığorta olunan xidmətdə (toplanışda) olduğu zaman:~~

~~ağır xəsarət (yaralanma, travma, kontuziya) alması nəticəsində, yaxud səhhəti pozulduğuna (xəstəliklə əlaqədar sağlamlığına ziyan dəydikdə) görə hərbi xidmətə yararsız hesab edildikdə — 25 faiz;~~

~~yüngül xəsarət (yaralanma, travma, kontuziya) alması ilə əlaqədar xəstəlik nəticəsində sıradankənar hərbi xidmətə yararlı hesab edildikdə — 5 faiz.~~

[9] 2 oktyabr 2008-ci il tarixli 699-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 16 noyabr 2008-ci il, № 257, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, №11, maddə 960)** ilə 6-cı maddənin birinci və ikinci hissələrində "**sığorta etdirənlər**" sözləri "**sığortalılar**" sözü ilə əvəz edilmişdir.

[10] 03 dekabr 2013-cü il tarixli **832-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 26 dekabr 2013-cü il, № 285, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 12, maddə 1491)** ilə 6-cı maddəyə yeni məzmunda dördüncü hissə əlavə edilmişdir.

[11] 16 dekabr 2014-cü il tarixli **1130-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 6 fevral 2015-ci il, № 28, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 2, maddə 73)** ilə 6-cı maddəyə yeni məzmunda yeddinci hissə əlavə edilmişdir.

[12] 03 dekabr 2013-cü il tarixli **832-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 26 dekabr 2013-cü il, № 285, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 12, maddə 1491)** ilə 7-ci maddənin birinci hissənin "a" və "b" bəndlərinin birinci yarımbəndlərində müvafiq olaraq "**notariat qaydasında təsdiq olunmuş**" və "**notariat qaydasında təsdiq edilmiş**" sözləri çıxarılmışdır.

[13] 20 oktyabr 2006-cı il tarixli 169-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 12, maddə 1007**) ilə 7-ci maddənin birinci hissəsinin "a)" bəndinin dördüncü abzasında "**yaralanması (kontuziyası)"** sözləri **"xəsarət (yaralanma, travma, kontuziya) alması**" sözləri ilə əvəz edilmişdir.

[14] 03 dekabr 2013-cü il tarixli **832-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 26 dekabr 2013-cü il, № 285, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 12, maddə 1491)** ilə 7-ci maddənin birinci hissənin "b" bəndinə yeni məzmunda üçüncü yarımbənd əlavə edilmişdir.

[15] 20 oktyabr 2006-cı il tarixli 169-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 12, maddə 1007**) ilə 7-ci maddənin birinci hissəsinin c)" bəndinin birinci abzasında "**yaralanması"** sözü **"xəsarət (yaralanma, travma, kontuziya) alması**" sözləri ilə əvəz edilmişdir.

[16] 20 oktyabr 2006-cı il tarixli 169-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 12, maddə 1007**) ilə 7-ci maddənin birinci hissəsinin ikinci abzasında "**yaralanmanın**" sözü "**xəsarətin (yaralanmanın, travmanın, kontuziyanın)**" sözləri ilə əvəz edilmişdir.

[17] 21 dekabr 2010-cu il tarixli **38-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 18 fevral 2011-ci il, № 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, № 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 02, maddə 71)** ilə 7-ci maddəsinin ikinci hissəsində "**tədris məktəbləri**" sözləri "**təhsil müəssisələri**" sözləri ilə əvəz edilmişdir.

22 oktyabr 2019-cu il tarixli **1685-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu

**("Azərbaycan" qəzeti, 13 noyabr 2019-cu il, № 251)** ilə 7-ci maddənin ikinci hissəsindən "**və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış qoşun birləşmələrinin**" sözləri çıxarılmışdır və həmin hissəyə "**idarələri,**" sözündən sonra "**hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanları (dövlət orqanlarının strukturuna daxil olan qurumlar),**" sözləri əlavə edilmişdir.

[18] 03 dekabr 2013-cü il tarixli **832-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 26 dekabr 2013-cü il, № 285, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 12, maddə 1491)** ilə 7-ci maddənin üçüncü hissə ləğv edilmişdir.

[19] 2 oktyabr 2008-ci il tarixli 699-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 16 noyabr 2008-ci il, № 257, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, №11, maddə 960)** ilə 2-ci maddənin adında və mətnində, 5-ci maddənin birinci hissəsinin "a", "b", "c", "ç" və "d" yarımbəndlərində, 6-cı maddənin dördüncü hissəsində, 7-ci maddənin birinci hissəsinin birinci abzasında, "a" yarımbəndinin ikinci və dördüncü abzaslarında, ikinci və üçüncü hissələrində və 8-ci maddədə ismin müvafiq hallarında "**sığorta edilən**" sözləri ismin müvafiq hallarında "**sığorta olunan**" sözləri ilə əvəz edilmişdir.

03 dekabr 2013-cü il tarixli **832-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 26 dekabr 2013-cü il, № 285, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 12, maddə 1491)** ilə 8-ci maddədə "**sərxoş vəziyyətdə hərəkət etdikdə**" sözləri "**alkoqoldan, narkotik vasitələrdən, psixotrop maddələrdən və ya güclü təsir edən digər maddələrdən istifadə olunması nəticəsində sərxoş vəziyyətdə hərəkət etdikdə, habelə sığorta olunan və ya onun vərəsələri tərəfindən bu Qanunun 7-ci maddəsində nəzərdə tutulmuş hallarda müvafiq sənədlər təqdim olunmadıqda**" sözləri ilə əvəz edilmişdir.

[20] 4 mart 2016-cı il tarixli **149-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 13 mart 2016-cı il, № 57, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 03, maddə 415)** ilə 9-cu maddənin birinci abzasında "**dövlət sığorta**" sözləri "**maliyyə bazarlarına nəzarət**" sözləri ilə əvəz edilmişdir.

[21] 03 dekabr 2013-cü il tarixli **832-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 26 dekabr 2013-cü il, № 285, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 12, maddə 1491)** ilə 9-cu maddənin ikinci hissəsində "**Qanunvericiliyinə uyğun olaraq**" sözləri "**Mülki, İnzibati Xətalar və Cinayət məcəllələrində nəzərdə tutulmuş hallarda**" sözləri ilə əvəz edilmişdir.

[22] 23 noyabr 2001-ci il tarixli 219-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 12, maddə 736**) ilə 10-cu maddə çıxarılmışdır.

[23] 24 iyun 2005-ci il tarixli 948-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 8, maddə 692**) ilə 11-ci maddədə "**mübahisələrə məhkəmə qaydasında baxılır**" sözləri "**mübahisələr Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada, o cümlədən məhkəmə qaydasında həll edilir**" sözləri ilə əvəz edilmişdir.

03 dekabr 2013-cü il tarixli **832-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 26 dekabr 2013-cü il, № 285, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 12, maddə 1491)** ilə 11-ci maddədə "**qanunvericiliyi**" sözü "**qanunları**" sözü ilə əvəz edilmişdir.